*Sara İBRAHİMOVA,*
*Bakı Dövlət Universiteti*
*Elmi kitabxanasının direktoru*

## BACARIQLI ELM VƏ TƏHSİL TƏŞKİLATÇISI

«Bakı Dövlət Universiteti, Kitabxanaşünaslıq kafedrasının müdiri, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfov Azərbaycanda kitabxanaşünaslıq elminin yaradıcısı, bu sahədə elmi məktəb yaratmış, tanınmış, alim, bacarıqlı elm və təhsil, təşkilatçısıdır». Azərbaycan Respublikasının təhsil naziri, fizika-riyaziyyat elmləri doktoru, professor, əməkdar elm xadimi Misir Mərdanovun Abuzər Xələfov haqqında bu fikri alimin yaradıcılıq yolunu öyrənmək, tədqiq etmək üçün dəyərli tövsiyədir.

1950-1955-ci illərdə Bakı Dövlət Universitetinin filologiya fakültəsinin kitabxanaçılıq şöbəsində təhsil almış prof. A.Xələfovun kitabxanaşünaslıq və biblioqrafiya kafedrasında müəllim saxlanılması universitet rəhbərliyinin öz məzunlarına diqqəti və yetişən gəncliyin müharibədən sonrakı quruculuq illərində dövlətin xarici və daxili siyasətinin kütlələrə çatdırılması, yeni insanın tərbiyə edilməsi işinə cəlb edilməsi demək idi.

«Kitabxana fondunun təşkilinin bəzi məsələləri» adlı kitabın nəşri, prof. A.Xələfovun ilk tədqiqat əsəri kimi, artıq Azərbaycan kitabxanaşünaslıq elminin təməlinin qoyulduğunu göstərirdi. Bu baxımdan, qeyd etmək lazımdır ki, kitabxana və kitabxanaşünaslıq elmi nə dünən nə də bu gün yaranıb. Bu elmin kitab nəşri qədər, sivil dünyamızda yaşayıb-yaratmış ilk alimlərin yaşı qədər tarixi vardır. Bu tarix minilliklər, qərinələrdir. Elm inkişaf etdikcə yeni cərəyanlar, yeni ideyalar meydana gəlir. Dünyəvi biliklərin sistemləşdirilib, oxucuya çatdırılması da kitabxanaçıdan, o vaxtkı kitab qoruyucularından maksimum bilik və bacarıq tələb edirdi. Elmə, biliyə olan bu tələbat sovetlər dönəmində bir nömrəli məsələ idi. Kommunizmin yeni insanını yetişdirmək üçün kitabxanaçıların zəhməti elm adamlarının fəaliyyətindən heç də az deyildi, bəlkə də, çox idi, çünki istər elmi, istərsə də kütləvi informasiyanın xalqa, xalqın düşüncəli ziyalı təbəqəsinə vaxtında çatdırmaq məsuliyyəti məhz kitabxanaçının üzərinə düşürdü. Bu zaman gənc A.Xələfovun **1960**-cı ildə nəşr olunmuş «Azərbaycanda kitabxana işinin tarixindən (**1870-1920**)» kitabı və **1961**-ci ildə «Azərbaycanda kitabxana işinin tarixindən (**1920-1932**-ci illər)» mövzusunda yazdığı və uğurla müdafiə etdiyi dissertasiya işi kitabxanaşünaslıq elminin bir sistem kimi tədqiqinə və tətbiqinə geniş meydan açır. Bununla da, keçən əsrin **60**-cı illərində A.Xələfov məktəbi yaranır və milli- mənəvi dəyərlərə əsaslanan bir özül üzərində inkişaf edib, daha da təkmilləşir.

Keçən vaxt ərzində A.Xələfovun çap olunmuş kitabları elmi əsərləri, onun elmi pedaqoji və ictimai fəaliyyəti Azərbaycan Respublikasının ictimai, siyasi həyatında mühüm rolu olan Vətəndaşlara, Vətənə layiqli övlad kimi böyüyüb, pərvazlanan insanlara bir örnək olmuşdur.

Dünyəvi elmlər inkişaf etdikcə, informasiyanın istifadəçiyə çatdırılması üsulları da təkmilləşir. Bu yeniləşmə, bu tərəqqi prof.A.Xələfovun elmi və əməli yaradıcılığının yeni mərhələsi olur. Məhz **1999**-cu ildə universitetin kitabxanaçılıq fakültəsinin nəzdində onun rəhbərliyi ilə kitabxana proseslərinin kompüterləşdirilməsi elmi-tədqiqat laboratoriyasının açılması qloballaşan dünyada yaranan vətəndaş cəmiyyətində Azərbaycanın informasiyavermə və informasiyaalma fəaliyyətini tənzimləyən kadrların yetişməsində dövrün nəbzini tutmuş və keçən əsrin **60**-cı illərində yaranmış A.Xələfov məktəbinin davamı kimi qiymətləndirmək lazımdır.

Ömrünün zirvə çağını yaşayan prof. A.Xələfov bir çox dövlət mükafatlarına, fəxri adlara layiq görülsə də, nüfuzlu

təşkilatların fəxri üzvü seçilsə də, bu gün onun elmi, əməli fəaliyyətini davam etdirən, təkmilləşdirərək inkişaf etdirən yüzlərlə dünənki tələbə bu gün onunla çiyin-çiyinə çalışan əməkdaşlar və Azərbaycanın ziyalıları müəllim, alim, ziyalı A.Xələfovun həyatda qazandığı ən böyük uğuru, həyatının qayəsidir.